# Gürcüstanın Tbilisi şəhərində "İNOGATE" Proqramı çərçivəsində seminar keçirilmişdir

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsinin baş məsləhətçisi Ə.Kərimov 2012-ci ilin noyabrın 5-dən 9-dək Gürcüstanın Tbilisi şəhərində "İNOGATE" Proqramı çərçivəsində energetika statistikası və onun statistik göstəricilərinin hesablanması mövzusunda keçirilmiş seminarda iştirak etmişdir.



İNOGATE Proqramı Avropa İttifaqı ilə tərəfdaş ölkələr olan Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri arasında keçirilən energetika sahəsində beynəlxalq lahiyədir. Seminarda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldava, Tacikistan, Gürcüstan, Türkmənistan, Ukrayna və Ermənistan iştirak edirdi.

İclasın birinci günü nümayəndəmiz "Azərbaycanda energetika statistikasının vəziyyəti" haqqında məruzə ilə çıxış etmişdir. Təqdimatdan sonra Beynəlxalq Energetika Agenliyi (BEA) əməkdaşları tərəfindən neft üzrə (aylıq və illik) statistika sorğularının doldurulması barəsində çıxışlar olmuşdur. Burada müxtəlif ölçü vahidlərinin bir ölçü vahidinə keçirilməsinin vacibliyi, ilin axırında ehtiyatların (neft və neft məhsullarının) dəyişilməsi və s. vacib amillərin nəzərə alınması vurğulanmışdır.

Seminarın ikinci günündə qaz üzrə (aylıq və illik) statistika sorğularının doldurulması zamanı qazın istilik vermə qabiliyyəti, idxal və ixracın nəzərə alınması, qazın həcminin, onun temperaturu və təzyiqinə görə dəyişilməsi, aşağı və yuxarı istilik vermə qabiliyyəti barəsində məlumatlar verilmişdir.



Ümumiyyətlə, seminarda əsasən bərpa olunan enerji növləri, elektrik və istilik enerjisi, energetika statistikası məlumatlarının ardıcıllığı və yoxlanılması, əsas enerji baza statistikasından enerji balansı, energetika statistikasının istfadəsində karbon qazının tullantısının qiymətləndirilməsi, energetikada qiymətin və verginin izlənilməsi, enerji səmərəliliyi göstəriciləri və təhlili və s. mövzular müzakirə olunmuşdur.

Seminarın sonunda İNOGATE proqramı təşkilatçıları tərəfindən bütün iştirakçı dövlətlər ilə gələcəkdə də əməkdaşlığın davam etdirilməsi niyyəti vurğulanmışdır.